# Türkiyə ilə enerji əməkdaşlığında yeni mərhələ

**Türkiyədə yerləşən "Gama Enerji İç Anadolu" elektrik stansiyasının idarəçiliyi bundan sonra Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən həyata keçiriləcək. Bu barədə müqavilə dünən Bakıda keçirilən II Azərbaycan–Türkiyə İnvestisiya Forumu çərçivəsində imzalanıb. Sazişə SOCAR-ın prezidenti Rövşən Nəcəf və "Gama Enerji" şirkətinin rəhbəri Hakan Əhməd Özman imza atıblar.**



Sənədə əsasən, 870 meqavatlıq elektrik stansiyasının 100 faiz payı SOCAR-a məxsus olacaq. Sövdələşmənin dəyəri 225 milyon ABŞ dolları təşkil edir. Bu investisiya SOCAR-ın Türkiyədə enerji istehsalı sahəsində mövqelərini gücləndirməklə yanaşı, Azərbaycan və Türkiyə arasında strateji enerji əməkdaşlığının daha da dərinləşməsinə xidmət edir.

Xatırladaq ki, "Gama Enerji İç Anadolu" elektrik stansiyası 2002-ci ildə təsis edilmiş GAMA Holding tərəfindən inşa olunub. Türkiyənin köklü sənaye qrupu olan qurum ölkənin artan elektrik enerjisi tələbatını qarşılamaq, müasir və səmərəli enerji istehsalı texnologiyalarına yatırım etmək, eləcə də uzunmüddətli və dayanıqlı enerji layihələri həyata keçirmək məqsədilə yaradılıb. Şirkət qısa müddətdə təbii qaz, su elektrik stansiyaları və külək enerjisi sahələrində iri layihələrə imza atıb.

GAMA Holding 2013-cü ilin dekabrında İç Anadolu Doğalgaz Kombine Çevrim Elektrik Stansiyasının tikintisinə başlayıb. 2014-2015-ci illər ərzində həyata keçirilən layihə çərçivəsində mühüm infrastruktur işləri görülüb; qaz və buxar turbinlərinin quraşdırılması, eləcə də elektrik ötürmə xətlərinin çəkilişi başa çatdırılıb. Qardaş ölkənin Kırıkkale vilayətində yerləşən stansiyanın tikintisində minlərlə mühəndis və texnik çalışıb.

2016-cı ilin ortalarında burada ilk sınaq istehsalının həyata keçirilməsinə start verilib. İlin sonunda isə stansiya tam gücdə kommersiya istehsalına başlayıb. Burada 2 qaz və 1 buxar turbini, eləcə də istilik bərpa qazanları quraşdırılıb. 840 meqavatlıq güclə istismara verilmiş stansiyanın imkanları getdikcə artırılaraq 2023-cü ildə 870 meqavata çatdırılıb. Bu artıma isə texniki optimallaşdırma və avadanlıqların yenilənməsi hesabına nail olunub.

Stansiyada qaz turbinindən çıxan isti qazlar boşuna buraxılmır, həmin istiliklə buxar istehsal edilir və əlavə elektrik alınır. İstehsal prosesində ətrafa buraxılan karbon emissiyalarının miqdarı isə minimum səviyyədədir. Yeni və müasir texnologiyalar əsasında fəaliyyət göstərən stansiyada az qaz sərfi ilə daha çox elektrik enerjisi istehsal olunur. Burada Avropa standartlarına uyğun nəzarət sistemləri tətbiq edilir.

Ötən müddətdə Türkiyənin ən strateji qaz-elektrik stansiyalarından birinə çevrilmiş "Gama Enerji İç Anadolu"nun illik istehsal gücü 6000 – 6300 kilovat-saat təşkil edir. Stansiyanın qaz təchizatı Samsun–Ankara magistral kəməri vasitəsilə həyata keçirilir. Burada istehsal olunmuş elektrik enerjisi isə 380 kilovoltluq yüksək gərginlik xətlə sistemə ötürülür. Bütün bu işlər Türkiyənin məşhur şirkəti BOTAŞ tərəfindən həyata keçirilir.

Stansiya hazırda Ankara şəhərinin və Anadolunun sənaye zonalarının elektrik enerjisi ilə təminatında mühüm rol oynayır. Ümumilikdə isə, Türkiyənin enerji təhlükəsizliyində əsas rol oynayan "Gama Enerji İç Anadolu" müasir və strateji qaz elektrik stansiyasıdır. Obyektin iqtisadi əhəmiyyətinə gəldikdə isə, onun ərsəyə gətirilməsinə 900 milyon ABŞ dolları investisiya yönəldilib. Bunun da hesabına minlərlə iş yeri yaradılıb. Stansiyanın fəaliyyətə başlaması qardaş ölkədə sənayenin davamlı enerji təminatını gücləndirilib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

Xalq qəzeti .- 2025.- 24 dekabr (№ 270).- S.18.